

*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 22 avqust 2020-ci il | № 51 (2469) | Qiymməti 30 qəpik


Tarix heç zaman unudulmur. 2016-cı ilin aprelində məktəblidin. Sələfi olacağın Azərbaycan əsgərlərinin qazandığı qələbənin sevincini sən də qürurla yaşadın. O qürurun boyumu sənin vətənsevərliyinin boyuycanıydı, sənin vətənsevərliyinin boyumu qürurunun boyuycanıydı, özün də bilmədin. O qürur səni bu günə yetirdi - indi əsgərsən, döyüş növbətçiliyi aparırsan, düşmənin bütün tərpənişlərini məsuliyyətlə nəzarətdə saxlayırsan. Əsgər qardaşlarından biri demişdi: "Əsgər döyüş növbətçiliyini Vətən sevgisiylə qoşa aparır". Səngərdə sən olursan, solunda Vətən sevgisi olur, sağında dövlətə, dövlətçiliyə, Hərbi anda sədaqət. Belə müqəddəsliyin əhatəsində sənin gücün şəhidlərimizin ruhunun arzuladığı qədərincə artır. Ona görə bunca qüdrətlisən, Azərbaycan əsgəri!

"Ali Baş Komandanın döyüş əmrini Böyük Qələbəylə tamamlayacağıq!" deyirsiniz və ictimaiyyət sizin qətiyyətinizi yaxın vaxtlarda yaşanılacaq qürurun işığı bilir. Bu işıq Ali Baş Komandanın 2018-ci ilin iyununda Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş paradda dediyi fikrin işığına sarılan işıqdı: “Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.

Sən qüdrətli ordunun əsgərisən. Türkiyə ilə Azərbaycanı təkcə ortaq dil, din, mədəniyyət, ədəbiyyat, ortaq mentalitet deyil, həm də bunları əhatələyən və yaşadan ortaq ruh birləşdirir. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə də ortaq ruhun yaşarılılığının təsdiqidir. Bunları bilirsən. Yəqin ki, ictimai-siyasi dərslərdə, asudə vaxtlarda söhbətlərdə onu da öyrənibsən ki, son illərdə Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq planına uyğun olaraq hər iki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə Bakıda "TurAz Qartalı" birgə taktiki-uçuş təlimləri keçirilir. Bu, qarşılıqlı etimaddır, qarşılıqlı güvəncdir, qarşılıqlı sevgidir. Sən də, əsgər yoldaşların da bu qarşılıqlı etimadı, qarşılıqlı güvənci, qarşılıqlı sevgini Azərbaycanla Türkiyənin mənəvi birliyinin manifesti bilirsiniz. Hərbi ekspertlər bu günlərdə başa çatan Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərini də iki qardaş dövlətin ordusunun döyüş hazırlığının yüksəldilməsində etibarlı vasitə adlandırdı. Siz bu dəyərlə də qürurlandınız, Azərbaycan əsgəri. Həm təmsil etdiyin ordunun döyüş qabiliyyətinə görə qürurlandın, həm də Türkiyə kimi böyük bir dövlətin ordusu ilə vəhdətdə dəyərləndirildiyinə görə...

## Ali Baş Komandanın döyüş əmrini Böyük Qələbəylə tamamlayacağıq!



Bu ilin iyulun 12-də Ermənistan Tovuz rayonu istiqamətindən dövlət sərhədimizi pozaraq təxribat törətməyə cəhd göstərdi. Əsgər qardaşların ermənilərin həmləsinin qarşısını qətiyyətlə aldı, Azərbaycan əsgərinin gücü düşmənin hazırlıqlı həmləsini üstələdi. Ermənistanın bu hərbi əməliyyatı qardaş Türkiyənin də heysiyyətinə toxundu. Türkiyə Respublikasının Prezidenti bildirdi ki, "...biz qardaş Azərbaycanı qətiyyən yalnız buraxmayacağıq. Sonuna qədər dəstəyimizi verəcəyik". Azərbaycan da, Azərbaycanı sevənlər də bu bəyanatı ruhun bəyanatı bildi. Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın dediyi fikirlər də Türkiyə-Azərbaycan münasibətlərinin təkcə qonşuluq münasibəti olmadığını təsdiqlədi və Türkiyənin mehmetciklərinin, Azərbaycanın əsgərlərinin ruhunu bir məcrada qovuşdurdu: "Yuxarı Qarabağı haqsız və qanunsuz şəkildə işğal edən Ermənistan bu yaxınlarda Azərbaycanın Tovuz bölgəsinə boyunu və həddini aşan hücum gerçəkləşdirib. Azərbaycan bizim canımızdır. Bu ağrını dərindən hiss edirik. Bu mənfur hücumu ən ağır şəkildə şiddətlə pisləyirik. Biz Türkiyə olaraq daim can qardaşımız Azərbaycanın yanında olmağa davam edəcəyik". Bu məcraya Böyük Qələbə deyəcəyik. Birgə hərbi təlimlər bu fikirlərin işığında o qədər əzəmətlə izlənildi ki! Bu möhtəşəmliyin əsgəri olmağınızla siz də qürurlanırsınız, Azərbaycan əsgəri! Eynən türk mehmetciyi kimi!..

Türkiyə-Azərbaycan birgə təlimlərinə müxtəlif münasibətlər var. Bu təlimlərin bəzi dövlətlərdə narahatlıq doğurması da təlimlərin yüksək səviyyədə keçdiyinin göstəricisidir. Bu narahatlıq qısqanclıqdır, müəyyən mənada, xofdur. Bəzi dövlətlər bu möhtəşəm təlimlərin narahatlığını yaşadığı məqamlarda Azərbaycana bəşəri, dünyəvi rəğbəti olan dövlətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu hərbi təlimləri Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürü kimi dəyərləndirməsinin qürurunu yaşadı. Bu qüruru siz də yaşadınız, Azərbaycan əsgəri. Hərbçi heysiyyəti vətəndaşlıq heysiyyətinin tərkib hissəsi olduğuna görə bu qürur sizin hərbi xidmət amalınızı ifadə edir. İctimaiyyətin düşüncələrinin haləsinə dönməklə nə gözəl ifadə edir!..

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Silahlı Qüvvələrini dünyanın ən güclü ordularından biri adlandırmaqla deyib: "...güclü ordu ilə təcrübə paylaşırıq. Türkiyə Silahlı Qüvvələri bu gün bütün dünyaya öz gücünü göstərib - Suriyada, İraqda, Liviyada... İnşallah, Türkiyə Silahlı Qüvvələrinin dəstəyi ilə Azərbaycan Silahlı Qüvvələri də öz vəzifəsini yerinə yetirəcək..." Bu fikirlər də düşüncələrindədi, Azərbaycan əsgəri. Bu fikirlərin də gerçəkləşəcəyi günün əsgərisiniz!

**"Azərbaycan Ordusu"**

# Gənc Liderlər Proqramının iştirakçıları Azərbaycanın Müdafiə naziri ilə görüşüblər

*Gənclər və İdman Nazirliyinin və Heydər Əliyev Mərkəzinin 2019-cu ildən həyata keçirdiyi "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçıları bu dəfə Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə görüşüblər.*




Bu barədə AZƏRTAC-a Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Onlayn tədbirdə Gənclər və İdman nazirinin müavini İntiqam Babayev əvvəlcə layihənin məqsədi, nazirlik tərəfindən vətənpərvərlik sahəsində görülən işlər, artıq 20 ildən artıq müddətdə Müdafiə Nazirliyinin, Gənclər və İdman Nazirliyinin əlaqədar qurumlarla birgə həyata keçiridiyi "Şahinlər" hərbi vətənpərvərlik oyunu, ümumilikdə gerçəkləşdirilən layihə və tədbirlər haqqında məlumat verib. Nazir müavini bu tədbirlərdə 10 mindən artıq gəncin iştirak etdiyini bildirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov vətənpərvərliyin sadəcə əsgərlərin çiyninə düşmədiyini, tutduğu vəzifədən asılı olmayaraq hər bir vətəndaşa aid olduğunu diqqətə çatdırıb.

General-polkovnik Zakir Həsənov bildirib ki, düşmənin əsas məqsədlərindən biri gənclərdə ölkəmizlə bağlı müxtəlif xoşagəlməz fikirlər formalaşdırmaqdır. Bu gün sosial şəbəkələrdə azərbaycanlı adı ilə qeydiyyatdan keçən çoxsaylı ermənilər var. Onların əsas məqsədi gənclərimizdə Vətəninə, ölkəsinə, dövlətinə qarşı mənfi rəy formalaşdırmaqdır. Mütləq şəkildə iki hədəfimiz olmalıdır. İlk növbədə gənclər hər bir işdə həmrəy olmalıdırlar. Digər məqam bir-birimizə dəstək olmağımızdır. Biz daim Vətən uğrunda çiyin-çiyinə döyüşməyə, onun müdafiəsinə hazır olmalıyıq.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov gənclərin Tovuz döyüşləri, Azərbaycanın ordu quruculuğu, Azərbaycan-Türkiyə birgə hərbi təlimləri və digər mövzular barədə suallarını cavablandırıb.

"Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının əsas məqsədi gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi ilə onlarda liderlik keyfiyyətlərinin inkişafına şərait yaratmaqdır. Cari ilin aprelindən start götürən proqramda iştirak üçün 350-dən artıq gənc müraciət edib. İlkin seçimlərdən sonra 171 gənclə onlayn formada müsahibə aparılıb. Nəticədə 30-a yaxın rayondan 115 gənc iştirakçı kimi seçilib. Proqramı uğurla başa vurmuş gənclərə diplom və gənc liderin döş nişanı təqdim ediləcək.

İştirakçıların seçimi zamanı onların ictimai fəallığı, təşkilatçılıq bacarıqları, dünyagörüşləri, hadisələrə baxışları, ünsiyyət və əlaqə qurmaq bacarıqları, komandada işləmək təcrübəsi kimi meyarlara üstünlük verilir.

Avqust-oktyabr aylarında proqram çərçivəsində onlayn formada rəsmi şəxslərlə görüş, vebinar və təlimlərin keçirilməsi nəzərdə tutulub.

Proqram Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının Tədbirlər Planının 5.1.1-ci yarımbəndinə (ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ olunması) əsasən həyata keçirilir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 avqust 2020-ci il.*** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 35 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əsrik Cırdaxan, Ağbulaq kəndlərində, Çəmbərək rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə, Yeğeqnadzor rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndində, Sisian rayonunun Arevis kəndində yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ərəfsə kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Novruzlu və Mərzili kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin hakimlərinə sertifikatlar təqdim edilib




Təbiət onu əhatələyən dövlətlərin hamısı üçün əzizdir. Təbiət səxavətini onu əhatələyən dövlətlərdən əsirgəmir. Təbiəti sevməlisən ki, onun cazibədarlığını da, gözəlliyini də ruhuna, könlünə, ömrünə köçürə biləsən. Xəzər təbiətin bir parçasıdır, özü boyda gözəllik güzgüsüdür. Şair İslam Səfərli onu göygözlü dəniz olaraq tərənnüm edirdi.

Sahilində yerləşən dövlətləri ruhunun ortağı bilir Xəzər. Ona görə bunca seviləndi, bunca əzizdi. Xəzər həm də bu dövlətlər arasında ünsiyyəti, münasibəti yaşadan dənizdi...

İdman yarışları da, bu və ya digər formatda keçirilən müsabiqələr də mənəvi birliyə vasitədir. Ənənəvi olaraq Xəzərdə Xəzəryanı dövlətlərin hərbi dənizçilərinin "Dəniz kuboku" müsabiqəsi keçirilir. Bu müsabiqənin qalibi dostluq olur. Qalib dövlətin himni səslənir, ürəklər bu himnlə birgə dostluq himnini də dinləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dostluğun güzgüsü bildiyimiz Xəzər dənizi haqqında dediyi fikirlər həmişə könülləri qarşılıqlı ehtiram duyğuları ilə kükrədib, kükrədəcək də: "Xəzəryanı ölkələr arasında mövcud olan dostluq, əməkdaşlıq münasibətləri Xəzərdə sülhün, təhlükəsizliyin qarantıdır".

"Dəniz kuboku-2020" hərbçi dənizçilər dostluğun qalib gələcəyi müsabiqəni bu il də tarixləşdirəcəklər. Bu tarix iştirakçı dövlətlərin həm dövlətçilik tarixində, həm də Silahlı Qüvvələrinin tarixində qürurla xatırlanacaq. İştirakçı dövlətlərin hərbi dənizçilərinin ünsiyyəti dərinləşir, dostluq münasibətləri səviyyəsinə yüksəlir. Bu müsabiqə həm də qarşılıqlı etimadın dərinləşməsini təmin edir, ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığı möhkəmləndirir. Bu müsabiqə qarşılıqlı təcrübə mübadiləsi üçün gərəkli vasitə olur...




Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bazasında bu il də keçirilən "Dəniz kuboku" beynəlxalq iştirakçılar müsabiqəsinin hakimlərinə hakimlik hüququ verən sertifikatlar təqdim edilib. Keçirilmiş seminarda "Hakimlik haqqında" əsasnamənin müzakirəsi zamanı hakimliyin prinsip və kriteriyalarını, mükafat və cərimə ballarının hesablanması qaydalarını, hakimlərin səlahiyyət və vəzifələrini müəyyən ediblər. Müsabiqənin təşkilatçıları tərəfindən hakimlərə verdikləri ixtisas məqbullarının nəticələrinə görə qol sarğısı və onlara hakimlik hüququ verən sertifikatlar təqdim edilib...

Azərbaycanın hərbçi dənizçiləri "Dəniz kuboku" beynəlxalq müsabiqəsində həmişə uğurla çıxış ediblər. İştirakçı dövlətlər dənizçilərimizi olduqca mükəmməl biliyə, yüksək mənəvi dəyərlərə malik tərəfdaş kimi dəyərləndirib. Bu, Azərbaycan Ordusunun nüfuzuna ehtiramdır.

**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Ordumuz tezliklə tariximizdə şanlı bir səhifə yazacaq

*Müasir dövrdə dövlətlərarası əlaqələrin, xüsusilə hərbi əlaqələrin inkişafı beynəlxalq müstəvidə yeni güc mərkəzlərinin yaranmasının nəticəsi kimi ortaya çıxır. Ölkəmizin bu gün dünyada yeri və rolunun artması, beynəlxalq münasibətlər sisteminin ən fəal üzvü kimi nüfuz qazanması da bu gerçəkliyi təsdiqləyir ki, Azərbaycan dövləti yerləşdiyi regionun geostrateji və geosiyasi üstünlüklərindən faydalı şəkildə bəhrələnmək, milli maraqlarını maksimum səmərəli realizə etmək üçün beynəlxalq hərbi əməkdaşlığı uğurla davam etdirir.*





Dövlətlərarası münasibətlər həm də müxtəlif beynəlxalq tədbirlərdə möhkəmlənir. Hərbi əməkdaşlıq baxımından dəyərli hesab edilən belə tədbirlərdən biri də ənənəvi olaraq keçirilən "Beynəlxalq Ordu Oyunları"dır. Bu tədbir iştirakçı dövlətlərin orduları arasında ikitərəfli və çoxtərəfli əlaqələrin zənginləşməsinə öz töhfəsini verir.

Ötən il Moskva vilayətinin Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən Azərbaycan tankçılarından biri ilə gizir Kamran İmanovla ön xətdə yeləşən hərbi hissənin təlim meydançasında görüşdük. Hərbi qulluqçu ilk olaraq "Tank biatlonu" müsabiqəsində əldə etdikləri nailiyyətlərdən söhbət açdı: "Biz hər il hərbi oyunlarda iştirak edirik. İldən-ilə nəticələrimizi daha da yaxşılaşdırmaq üçün daim üzərimizdə çalışırıq. Onun nəticəsidir ki, ötən il Azərbaycan tankçıları güclü rəqiblərini arxada qoyaraq 30-a yaxın dövlət arasında 4-cü pillədə qərarlaşmağa nail oldu. Bu yarışlar onu göstərdi ki, zəif və güclü tankdan çox heyətin hazırlıqlığı və peşəkarlığı daha vacibdir. Bu yarışlar onu sübut etdi ki, güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməklə yanaşı, onun şəxsi heyəti ordumuzu beynəlxalq yarışlarda da yüksək səviyyədə təmsil etmək gücündədir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının, Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyulmuş vəzifələri uğurla həyata keçirməsinin nəticəsində mümkün olub".

"Biz yaxşı bilirik ki, Azərbaycan bu gün Ermənistanla münaqişəyə cəlb olunub və torpaqlarımızın 20 faizi haqsız olaraq işğal edilib", - deyə gizir söhbətinə davam etdi. - Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Tapdalanmış haqlarımızın bərpa edilməsi naminə ordu quruculuğunu inkişaf etdirmək, döyüş hazırlığını artırmaq Azərbaycan Ordusunun qarşısında duran vacib məsələdir. İnanırıq ki, bu gün ordu quruculuğu sahəsində əldə etdiyimiz uğurlar dövlətimizin gələcəyi, xalqımızın azad və müstəqil yaşaması naminə çox şeyi dəyişəcək. Münaqişəyə cəlb olunan dövlətimizin ordusunun bugünkü mənəvi keyfiyyətləri, davranışı məhz indi özünü daha qabarıq büruzə verir, sınağa çəkilir. Bu sınaqdan üzüağ çıxan ordumuz tezliklə tariximizdə şanlı bir səhifə yazacaqdır. Bu gün Azərbaycanın təcavüzkar Ermənistan tərəfindən cəlb olunduğu müharibə hələ sona çatmayıb. Şübhə etmirik ki, torpaqlarımıza həyasızcasına sahib çıxmaq istəyənləri məğlubiyyət gözləyir. Özgə xalqın torpağında da hökmranlıq etmək mümkün deyil. O cümlədən, tarix boyu qəhrəman övladları, yurdu-yuvası uğrunda canını fəda edən oğulları ilə tanınmış Azərbaycan xalqının torpağında.

Gizir Kamran İmanov onu da qeyd etdi ki, torpaq uğrunda canından keçən şəhidləri, sağlamlığını itirən əlilləri, ömrünün yarısını, yarısından çoxunu hərbi xidmətdə keçirən, gəncliyini bu Vətənə həsr edən zabit-gizirləri olan bir ordunun qarşısında dayanmaq mümkün deyil. "Bunu bizə yolunda uzun illər savaşlardan keçən, qanlar axıdan, əzablar çəkən nəsillərimizin əmanəti deyir. Atalarımızdan gələn belə bir deyim var ki, əgər torpaq səni yedirib-içirirsə, öz nemətləri ilə bəsləyirsə, sənin də torpağa verəcəklərin var. Bu, mənəvi borcdur. Borcu vaxtında və əvəzsiz ödəmək isə şərəf və qürur məsələsidir".

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Tankçılarımız "Tank biatlonu" müsabiqəsinə hazırlıqlarını davam etdirirlər

*"Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız onların istifadəsinə verilən döyüş maşınlarını qəbul edib, texniki qulluq göstərib və baxış keçiriblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tank heyətləri və texniki dəstək qrupu döyüş maşınlarının mühərriklərini, idarəetmə sistemlərini və rabitə vasitələrinin texniki vəziyyətini yoxlayıblar.

Qeyd edək ki, Azərbaycan tankçıları avqustun 23-də Çin, Belarus və Serbiyadan olan tank heyətləri ilə yarışacaqlar.

Müsabiqə sentyabrın 5-dək davam edəcəkdir.

* * *

"Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız birinci divizionun ilk yarışına hazırlıqlarını davam etdirirlər.

Tank heyətləri və texniki dəstək qrupu tərəfindən yarışda istifadə olunacaq döyüş maşınlarına baxış keçirilib. Heyətlərimiz döyüş maşınlarını yoxladıqdan sonra, tankın ştat silahlarından yoxlama atışları da icra ediblər.

# "Azərbaycan Ordusu bundan sonra da düşmənin istənilən təxribatlarının qarşısını almağa qadirdir"

Azərbaycanın Müdafiə Nazirliyi Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın fikirlərinə münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 19-da keçirilən mətbuat konfransında çıxış edən Ermənistanın sabiq prezidenti 2016-cı ilin Aprel döyüşləri barədə danışarkən guya Azərbaycan Ordusunun tərkibində Türkiyə və İsraildən hərbi təlimatçıların olması haqqında sərsəm fikir səsləndirib.

Nazirliyin açıqlamasında qeyd olunub ki, məhz Ermənistan silahlı qüvvələrində hərbi xidmətə çağırışçı və səfərbərlik ehtiyatlarının çatışmazlığı səbəbindən xarici ölkələrdən gətirilən muzdluların istifadə edilməsi praktikası geniş tətbiq olunur.

Aprel döyüşlərindən aldığı zərbənin təsirindən 4 il sonra qismən özünə gələn S.Sarkisyanın bəraət qazanmaq üçün bu cür cəfəng fikirlər səsləndirməsi heç də təəccüblü deyil. Belə ki, bir tərəfdən Ermənistan ordusunun həmin döyüşlərdəki məğlubiyyətinin fəsadları, digər tərəfdən isə parlament komissiyasının bu uğursuzluqların səbəb və səbəbkarlarını müəyyən edərək onlara ağır cəza vermək çağırışı sabiq prezidenti belə bir addım atmağa məcbur edib.

"Bildiririk ki, bu gün Azərbaycan Ordusu ölkəmizdə və dünyanın ən nüfuzlu hərbi təhsil müəssisələrində ixtisaslaşmış peşəkar hərbi qulluqçularla komplektləşdirilmiş və arsenalında ən müasir silah-sursat, hərbi texnikası olan ordudur. S.Sarkisyanın səsləndirdiyi yalan və gülünc fikirlər onun öz tərəfdaşları, erməni ictimaiyyəti qarşısında itən nüfuzunu bərpa etməyə, xüsusilə də parlament komissiyasının qəbul edəcəyi qərarlara təsir etməyə yönələn uğursuz cəhddir. Erməni xalqı bilməlidir ki, Ermənistan ordusunun Aprel döyüşlərindəki alçaldıcı məğlubiyyətinin günahkarı məhz S.Sarkisyan və onun hərbi-siyasi rejimi olub.

Bir daha bildiririk ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın hazırkı hakimiyyətinin törətdiyi hərbi avantüranın qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu bundan sonra da düşmənin istənilən təxribatlarının qarşısını almağa qadirdir", - deyə Müdafiə Nazirliyinin açıqlamasında qeyd edilib.

*Nümunəvi xidmət*

# “Vətənimizi göz bəbəyi kimi qoruyuruq”

Ön xətdə yerləşən hərbi hissələrimizdən birindəyik.

- Düşmənlə üzbəüz dayanaraq, ölkəmizin ərazi bütövlüyünü qoruyan hər bir əsgər cəsurdur, - deyə bizi qarşılayan zabit Ceyhun Rzayev söhbətə başladı. - Bu günə qədər bir neçə hərbi hissədə xidmət etmişəm. Bu müddət ərzində tabeliyimdə Azərbaycanımızın müxtəlif bölgələrindən çağırılan əsgərlər olub. Hamısı Vətənimizin müdafiəsində ayıq-sayıq dayanıb, üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlib. Vətənin keşikçiləri hərbi xidmətdə bir-birilə dostlaşır, sözün əsl mənasında, silahdaşa çevrilirlər. Bu gün də Vətənini səmimi qəlbdən sevən, xidmətlərində öz nizam-intizamı ilə seçilən əsgərlərimiz az deyil. Tabeliyimizdə xidmət edənlərin hər biri əsgəri vəzifəsinə vicdanla yanaşır. Belə əsgərlərimizdən biri də Təbriz Həmidovdur.



Əsgər Təbriz Həmidov xidmətinin çox hissəsini geridə qoyub. O, işğal edilmiş ərazilərimizin azad edilməsi üçün Vətənimizin çağırışına hər an hazır olduğunu bildirdi.

- Mən qüdrətli və qalib Azərbaycan Ordusunun əsgəriyəm, - əsgər Təbriz Həmidov dedi. - Hər bir azərbaycanlı kimi mən də Vətənimə öz əsgəri borcumu verməyə gəlmişəm. Hərbi xidmətə yola düşəndə valideynlərim ləyaqətlə xidmət etməyi tövsiyə ediblər. Mən də çalışıram ki, onların başını uca edim. Komandirlərimizin əmr və tapşırıqlarını vaxtında, dəqiq yerinə yetirirəm. Məşğələlərdə öyrədilənləri dərindən mənimsəməyə çalışıram. Komandirlərimiz çöl dərslərinə üstünlük verərək, nəzəri biliklərimizi möhkəmləndirirlər. Bizə təhkim olunmuş silahı sevərək, qulluq edirik. Silahımızı mütəmadi olaraq təmizləyir, onu hər an döyüşə hazır vəziyyətdə saxlayırıq. Çünki məkrli düşmən hər an təxribat törədə bilər. Bu zaman silahımızla onlara layiqli cavab verib, geri oturdacağıq. Uşaq vaxtlarından düşmənin nə qədər hiyləgər olduğunu kütləvi informasiya vasitələri ilə izləmişik. Onlar xalqımızın qonaqpərvərliyindən, sülhsevərliyindən istifadə edərək, torpaqlarımızın bir qismini işğal ediblər. Ancaq bu gün onların törətdikləri vəhşiliyin cavabını vermək üçün Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik. Həmin gün düşmən Azərbaycan əsgərinin gücünü hiss edəcək.

Döyüşçümüz əsgər yoldaşlarının doğma Azərbaycanımızın müxtəlif guşələrindən olmalarına baxmayaraq, bir ailənin üzvləri olduqlarını bildirdi. Onların yeməkləri, içməkləri, xidmətləri birdir. Döyüş mövqeyində biri istirahət edərkən digəri düşməni nəzarətdə saxlayır. Bir sözlə, hamısı bir-birinə dayaqdır.

Ölkəmizin təhlükəsizliyini təmin edən ordumuz millətimizin, ana-bacılarımızın, böyüyən gələcək nəslin təhlükəsizliyini təmin edir. Ordumuzun gücü onun sıralarında xidmət edənlərin bilik və bacarığından asılıdır. Bu səbəbdən əlində silah Vətənimizin müdafiəsində dayanan igidlərimiz vəzifələrini dərindən bilməlidirlər. Əsgərlərimiz onlara olan etimadı doğruldur, öyrədilənləri dərindən mənimsəyir, Vətənimizi göz bəbəyi kimi qoruyurlar. Sevindirici haldır ki, oğullarımız doğma Azərbaycanımızın müdafiəsində öz töhfələrini verirlər.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# “Hər bir əsgər hərbi xidmətdə olduğu müddətdə peşəkar hərbi həkimlər tərəfindən müayinə və müalicə edilir”

*Müdafiə Nazirliyi müddətli həqiqi hərbi xidmətdə olan Yaqublu Rəhim Tofiq oğlunun hərbi xidmətdən əvvəl futbol oynayarkən dizindən aldığı travma ilə əlaqədar guya hərbi hissədə müalicə edilmədiyi və əməliyyata ehtiyac olması barədə sosial şəbəkələrdə yayılan məlumatlara münasibət bildirib.*

Nazirliyin Mətbuat Xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, hərbi xidmətdə olan hər bir hərbi qulluqçunun ailə vəziyyəti, sosial statusu, cəmiyyətdə tutduğu mövqeyi və digər amillərdən asılı olmayaraq onlar nizamnamələrin tələblərinə uyğun qaydada xidmət keçir və komandanlıq tərəfindən eyni diqqət və qayğı ilə əhatə olunurlar.

"2020-ci ilin yanvar ayında hərbi xidmətə çağırılmış əsgər R.Yaqublu ilə bağlı bildiririk ki, o, hazırda hərbi xidmətdədir və xidmətini normal şəraitdə davam etdirir. Xidmətlə bağlı hər hansı bir narazılığının olmadığını özü də etiraf edir.

Hərbi xidmətdən əvvəl sol ayağının diz nahiyəsindən aldığı travma ilə bağlı o, cari ilin fevral, aprel və iyul aylarında bir neçə dəfə hərbi hospitalda hərbi həkim-travmatoloqlar tərəfindən müayinə olunub. Diaqnozlar əsasında bu travmanın xidmətə manеə yaratmadığına, hər hansı əməliyyata ehtiyac olmadığına dair əsgərin tibb kitabçasında müvafiq qeydlər aparılıb. Bununla belə, əsgər R.Yaqublu müayinə olunması üçün sabah yenidən hərbi tibb müəssisəsinə göndəriləcək.

Qeyd edirik ki, hər bir hərbi qulluqçunun özünün və ailə üzvlərinin istənilən müraciətinə həssaslıqla yanaşılır, məsələnin dərhal araşdırılaraq müsbət həlli istiqamətində müvafiq tədbirlər görülür. Hərbi xidmətdə olduğu müddətdə zərurət yarandıqda hər bir əsgər peşəkar hərbi həkimlərimiz tərəfindən müayinə və müalicə olunurlar.

Bir daha bildiririk ki, sosial şəbəkələr vasitəsilə məsələnin siyasiləşdirilərək hərbi xidmətə müdaxilə olunması cəhdini qəti surətdə rədd edir və bu kimi hərəkətləri qəbuledilməz hesab edirik", - deyə məlumatda bildirilib.

# “Əsgərlərə layiqincə diqqət göstərmək hər birimizin borcudur”



*Azərbaycan mətbəxi milli mədəni irsimizin mühüm tərkib hissələrindəndir. Dünyanın qədim və zəngin mətbəxlərindən biri olan Azərbaycan mətbəxinin ləzzətini təkcə həmvətənlərimiz deyil, bu nemətlərdən dadan xarici turistlər də təsdiq edə bilərlər. Zəngin mətbəximizdən çox şey danışmaq olar, lakin bu dəfəki mövzumuz ordu sıralarında Vətənə xidmət edən gənclərimizin qidalanması ilə bağlı olacaq.*

Yolumuz yenə cəbhə xəttində yerləşən hərbi hissələrdən birinədir. Hərbi hissəyə gəlişimiz şəxsi heyətin nahar fasiləsinə təsadüf etdi. Nizami qaydada yeməkxanaya daxil olan şəxsi heyət ilk öncə gigiyenik qaydalara əsasən əllərini yuduqdan sonra müasir zala daxil oldu. Biz ilk öncə şəxsi heyətə verilən qidalara nəzər saldıq. Sonra yeməkxana rəisi gizir İbrahim Quliyev ilə həmsöhbət olduq. "Şəxsi heyətin məişət şəraiti, onun düzgün qidalanması hər zaman yüksək səviyyədə olmalıdır. Keyfiyyətli, yüksək kalorili qidalar qəbul edən hərbi qulluqçuların orqanizmi güclü, immuniteti sağlam və möhkəm olur. Qəbul edilən qida əsgərlərin gündəlik fəaliyyətinə də mühüm təsir göstərir. Yüksək enerjiyə malik şəxs daha cəld və çevik olur, verilən tapşırıqları operativ şəkildə yerinə yetirməyə qadir olur. Bugünkü menyuda gördüyünüz kimi milli xörəklər üstünlük təşkil edir. Bunlardan başqa əsgərlərin gündəlik qida rasionuna milli yeməklərimizdən dolma, küftə və parça bozbaş, müxtəlif növ plovlar daxildir. Eyni zamanda, qida rasionunda olan ət, yumurta, balıq məhsulları, fəslə uyğun meyvə-tərəvəz, kompot və təbii şirələr də şəxsi heyətin istehlakına verilir".

Yeməkxana növbətçisi baş gizir Gülhüseyn Orucov ərzaqların və yeməklərin hazırlanma prosesindən söz açdı. "Hərbi hissəyə gətirilən təzə və keyfiyyətli ərzaq məhsulları soyuducu kameralarda saxlanılır. Şəxsi heyət üçün normaya uyğun olaraq gündə üç dəfə yemək hazırlanır. Təcrübəli aşpazlarımız tərəfindən hazırlanan yeməklər təkcə əsgərlərimiz tərəfindən deyil, yüksək rütbəli zabitlərimiz tərəfindən də qiymətləndirilir. Bir sözlə, hər kəs evindəki kimi dadlı və keyfiyyətli qidalardan razıdır. Bu da aşpazların təcrübəsindən xəbər verir. Yenicə istifadəyə verilmiş hərbi hissəmizin yeməkxanası da müasir tələblərə cavab verir. Girişdə şəxsi heyətin gigiyena qaydalarına riayət etməsi üçün əl-üz yuma yeri fəaliyyət göstərir ki, yeməkxanaya daxil olan əsgər ilk öncə burada əl-üzünü yuduqdan sonra yemək paylanılan stendlərə doğru yaxınlaşır, öz qida payını aldıqdan sonra stol arxasında əyləşir.



Əsgər Tural Musayev verilən yeməklərdən və ümumi yaradılan şəraitdən ağızdolusu danışdı. "Burada təcrübəli analarımız tərəfindən bizə dadlı xörəklər hazırlanır, müxtəlif çeşiddə milli yeməklərdən yeyirik. Həftənin günlərinə görə müxtəlif salatlar və meyvə şirələri ilə təmin edilirik. Hər birimiz istər gündəlik fəaliyyətimizin təşkili üçün təminat baxımından, istərsə də qida rasionu baxımından çox məmnunuq. Bizlər üçün yaradılan şərait arzuolunandır".

Mətbəxdə çalışan qadınlardan aşpaz Əfruz Nəcəfova bildirdi ki, əsgər balalarımız bu gün Vətən müdafiəçisi, sabah gələcəyimizin təminatçısıdırlar. "Onlara layiqincə diqqət göstərmək hər birimizin borcudur. Hər bir əsgəri öz övladım bilirəm. Baxmayaraq ki, üç övlad anasıyam, burada çalışdığım müddətdə yüzlərlə övlad qazanmışam. Tanrı onların hər birini qorusun. Onların yeməkləri iştahla yeməsini, üzlərindəki yaranan təbəssümü görüncə könlüm açılır. Onları dadlı yeməklə təmin etmək bizim başlıca vəzifəmizdir. Vətənini sevən, orduşuna güvənən hər bir kəs öz əsgərinə qayğı göstərməlidir. Çünki Azərbaycan əsgəri hər şeyin ən yaxşısına layiqdir. Çünki onlar müqəddəs amala xidmət edirlər".

Nahar fasiləsindən sonra hərbi qulluqçular Azər Nuriyev, Sənan Məmmədli, İlqar Hümmətovdan eşitdiyim yalnız xoş sözlər oldu. Hər biri yeməkxana personalına (aşpaz, qabyuyan və s.) minnətdarlıqlarını bildirdilər. Hərbi hissədə yaradılan şəraitə görə ölkə və ordu rəhbərliyinə təşəkkürlərini bildirdilər.

**Baş leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

# Döyüş meydanında və beynəlxalq müstəvidə əldə edilən uğurlar Ali Baş Komandanın sarsılmaz qətiyyətinin göstəricisidir

Mehman SÜLEYMANOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik

(II məqalə)

Tovuz hadisələrində qazanılan uğura yol açan göstəricilərdən biri də sözsüz ki, iqtidar-xalq birliyinin real qüvvə kimi Ermənistanın hərbi-siyasi rəhbərliyinə qarşı güclü zərbəyə çevrilməsi idi. Bu hadisələrin başlaması ilə Azərbaycan xalqı dövlət rəhbərliyinə qarşı dünyanı heyrətə gətirəcək bir həmrəylik nümayiş etdirdi və xalq Vətən torpaqlarının müdafiəsi üçün nəinki Ali Baş Komandanının yanında olmağa, hətta onun bir əmri ilə cəbhəyə yollanmağa hazır olduğunu ortaya qoydu. Bununla Vətənin müdafiəsi məsələsində Ali Baş Komandan-xalq vəhdətinin əyaniliyinə Azərbaycanın dostları da, düşmənləri də şahid oldular. Dünya təcrübəsi də göstərir ki, Vətənin müdafiəsi baxımından iqtidar-xalq birliyi son dərəcə vacibdir. Çünki xalq təkcə müharibə ehtiyaclarını ödəyə biləcək bir qüvvə deyil, həm də Vətənin müdafiəsini öz üzərinə götürmüş ordunun ilham mənbəyidir. Xalqın mübariz iradəsinin üzə çıxarılması və onun məqsədyönlü şəkildə yönləndirilməsi isə Ali Baş Komandanın təşkilatçılıq fəaliyyətinin mühüm istiqamətlərindən biridir. Dövlət rəhbərinin, Ali Baş Komandanın təşkilatçılıq məharəti ilə xalqın mübariz əhval-ruhiyyəsini coşduraraq onu Vətənin müdafiəsinə yönləndirmək də olar, düzgün qurulmayan təşkilatçılıq işi ilə xalqın mübariz əhval-ruhiyyəsini məhv etmək də olar. Tovuz hadisələri dövlət rəhbərinin öz fəaliyyətində, xüsusən Vətənin müdafiəsində xalqa dayaqlanmağın, ağır gündə xalqla bir yerdə olmağın yeni bir nümunəsini göstərdi. Prezident İlham Əliyev özünün son çıxışlarında bu birliyi belə dəyərləndirirdi: "Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. ... son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi. ...Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. ...Dünən bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər - mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi".

Tovuz hadisələri zamanı tarixi zəfərin əldə edilməsinin bir göstəricisi də, heç şübhəsiz, qüdrətli Azərbaycan Ordusunun mövcudluğudur. Qəfil şəkildə haqlanmasına baxmayaraq, qısa zaman ərzində toparlanan və düşmənə sarsıdıcı zərbə endirməyə qadir olan belə bir ordunun yaradılması İlham Əliyevin Ali Baş Komandan kimi bütün prezidentliyi dövründə xüsusi diqqət göstərdiyi sahələrdən biridir. İstənilən cəmiyyət daxilində mövcud olan çoxlu sayda ictimai, siyasi, mədəni, kütləvi və s. strukturlar içərisində heç bir struktur ordu qədər mərkəzləşdirilmiş rəhbərliyə ehtiyac duymur. Yalnız güclü dövlət və güclü mərkəzləşdirilmiş rəhbərlik olan yerdə güclü ordu yaratmaq mümkündür. Belə güclü dövlətin və mərkəzləşdirilmiş rəhbərliyin təmsilçisi isə Ali Baş Komandandır. Doğru-düzgün və real hədəflərin müəyyənləşdirilməsi və ölkə potensialının planlı şəkildə bu hədəflərin icrasına yönləndirilməsi indi Azərbaycan Ordusunu dünyanın ən güclü orduları sırasına yüksəldib. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş yeni Azərbaycan Ordusunun bugünkü səviyyəyə çatmasının memarı isə heç şübhəsiz ki, Ali Baş Komandan İlham Əliyevdir. Onun əsas tutduğu siyasət əsasında Azərbaycan Ordusu dünyanın ən müasir silah və hərbi texnikası ilə təchiz edilib, infrastruktura mənzərəsi tamamilə dəyişib, döyüş hazırlığı ən yüksək tələblər səviyyəsinə qaldırılıb.

Azərbaycan Ordusunun sürətli inkişafını və Vətənin müdafiəsi üçün veriləcək bütün tapşırıqların icrasına qadir olmasını İlham Əliyev öz çıxışlarında dönə-dönə qeyd edib və Ali Baş Komandan kimi onun hazırlıq səviyyəsini yüksək qiymətləndirib. Tovuz hadisələrinin yekunlarına aid etdiyi çıxışlarında da Azərbaycan Ordusu Ali Baş Komandanın ali qiymətinə layiq görülmüşdü. "... Bu gün biz güclü ordu yaratmışıq. ... Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. ...Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. ... Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib".

Azərbaycan Ordusu öz gücünü və qüdrətini 2016-cı ilin aprelində Ermənistanın hərbi qüvvələrinin təxribatının qarşısının alındığı zaman və 2018-ci ilin mayında Naxçıvanın Günnüt kəndi ətrafındakı torpaqları erməni işğalından azad edərkən artıq əyani şəkildə nümayiş etdirib. Ali Baş Komandanın yuxarıdakı fikirlərində də buna bir işarə vardır. Həmin uğurları İlham Əliyev Azərbaycanın hərb tarixinin şərəfli səhifəsi kimi qələmə verirdi. 2020-ci il iyulun 12-17-də



Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində baş verən hadisələr zamanı isə Azərbaycan Ordusunun bölmələri tamamilə yeni bir keyfiyyət ortaya qoydular. Ordunun komandir və zabit heyətinin yüksək peşəkarlığı, təşəbbüskarlığı və çevikliyi Ali Baş Komandan tərəfindən verilən tapşırıqların tam şəkildə yerinə yetirilməsinə yol açdı. Qısa müddət ərzində bölgədəki hərbi qüvvələr bu təcavüzün qarşısının alınmasına səfərbər olundular, Azərbaycan Ordusunun malik olduğu müasir hərbi texnika çox dəqiqliklə işə salındı. Xüsusilə pilotsuz uçuş aparatları Ermənistanın istər sərhəd boyu, istərsə də Ermənistanın dərinliklərində olan hərbi obyektlərini darmadağın etdi, təcavüzkara ağır itki verildi. Erməni hərbi qüvvələrinin ələ keçirməyə çalışdığı ərazilər geri qaytarıldı və düşmənə bu bölgədə bir qarış da olsa torpaq verilmədi.

Tovuz hadisələrinin yekunları ilə bağlı çıxışlarından birində İlham Əliyev ordunun komandir heyətinin, Müdafiə Nazirliyinin rəhbərliyinin Ermənistanın hərbi təcavüzünün qarşısının alınması üçün göstərdikləri xidməti fədakarlığa öz münasibətini belə bildirirdi: "...Bizim şanlı ordumuz, bizim əsgərlərimiz, zabitlərimiz, hərbi komandirlərimiz bu günlər ərzində gecə-gündüz yatmadan iş başındadırlar. Mən Müdafiə nazirinə, Baş Qərargah rəisinə nə vaxt zəng edirəmsə, iş başındadırlar - gecə, səhər saat 7-də, axşam saat 10-da, gecə saat 2-də. Biz böyük qələbə qazanmışıq".

Tovuz hadisələri zamanı şəhid olan hərbçiləri isə İlham Əliyev nisgilli duyğularla yad edirdi, onların qəhrəmanlığını gənc nəsil üçün örnək sayırdı. Bu da əslində, Ali Baş Komandan tərəfindən Vətən müdafiəçilərinə göstərilən qayğının bir nümunəsi idi. Bununla İlham Əliyev həm də onu anladırdı ki, Vətənin müdafiəsi yolunda canını fəda edənlər heç zaman unudulmayacaqlar. Əksinə, Azərbaycan xalqı haqlı olaraq onlarla fəxr edəcəkdir: "General Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar... Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib".

Prezident İlham Əliyev onu da bəyan edirdi ki, ordunun inkişafı və möhkəmləndirilməsi üçün Ali Baş Komandan kimi o, gələcəkdə də lazım olan tədbirləri həyata keçirəcəkdir: "Ordumuz üçün nə lazımsa, biz edirik və edəcəyik". Belə bir davamlı siyasət, əslində, xalqın və dövlətin milli maraqlarından və istəyindən irəli gəlməkdədir. Çünki indi bütün xalq da görür ki, Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş çağırışların qarşısının alınmasının etibarlı yollarından biri məhz Azərbaycan Ordusunun daha da gücləndirilməsidir.

Tovuz hadisələrinin qarşısının alınması zamanı tarixi zəfər əldə edilməsinin bir göstəricisi də Ali Baş Komandan kimi İlham Əliyevin şəxsi idarəçilik və təşkilatçılıq keyfiyyətləridir. Ali Baş Komandanın vəziyyətə nəzarəti dərhal öz əlinə alması, baş verən təcavüzün aradan qaldırılması üçün soyuqqanlılıq nümayiş etdirməsi, vaxtında zəruri olan göstərişləri verməklə qətiyyət göstərməsi, verdiyi əmrlərin icrasına nail olmaq çox tezliklə vəziyyətin sabitləşdirilməsinə, şəhid olmuş hərbçilərin qisasının alınmasına, başlıcası isə dövlət sərhədinin Azərbaycan hissəsinin bütünlüklə nəzarət altına götürülməsinə yol açdı. "Dərhal mən bütün müvafiq göstərişlər verdim. Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın. ... görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu".

İlham Əliyev Ali Baş Komandan kimi yalnız ordu qüvvələrinin qisas döyüşlərinin keçirilməsini nəzarət altına götürmədi. O, eyni zamanda, Prezident Administrasiyasının müvafiq şöbələrinə, Nazirlər Kabinetinə, aidiyyəti qurumlara lazımi göstərişlər verdi, dövlətin gücünü baş verən erməni təcavüzünün qarşısını almağa səfərbər etdi. Bu hadisələrin nəticəsi də artıq göstərir ki, Ali Baş Komandan döyüş xəttində təşəbbüsün ələ alınması və Ermənistanın hərbi-siyasi rəhbərliyinin yerində oturdulması üçün zəruriliyi və səmərəliliyi şübhə doğurmayan qərarlara əl atdı.

Dünya hərb təcrübəsi birmənalı şəkildə onu deməyə əsas verir ki, müharibə şəraiti yalnız ordu üçün, ölkə üçün, xalq üçün ağır sınaq deyil. Bu şərait həm də ölkənin Ali Baş Komandanının idarəçilik qabiliyyətinin sınağıdır. Çünki xalqın da, ölkənin də, ordunun da potensialı son nəhayətdə Ali Baş Komandanın idarəçilik məharəti ilə öz səmərəsini verir. Gözlənilməz hadisələr, hərbi şəraitdə baş verən kəskin dəyişikliklər bir çox hallarda qeyri-adekvat qərarlar qəbul edilməsini və onun icrasına da fərqli yanaşılmasını tələb edə bilər. Belə anlarda Ali Baş Komandanın təşkilatçılıq keyfiyyətləri önə çıxır ki, məhz bu keyfiyyətlər çoxlarının gözləmədiyi, çoxlarının inana bilmədiyi, çoxlarının duya bilmədiyi qərarların və idarəetmə təcrübəsinin meydana gəlməsinə yol açır. Yəni müharibə şəraitində o halda uğur əldə etmək olar ki, qəbul edilmiş qərarlarda ən kiçicik risklərə belə yer verilməsin və bununla da hərbi uğurun əldə edilməsi üçün etibarlı baza yaradılsın.

Müharibənin aparılması ilə bağlı düzgün və dəqiq qərar qəbul edilməsinin nə dərəcədə məsuliyyətli bir iş olduğunu əyaniləşdirmək üçün hərbi filosof Klauzevits dünyanın tanınmış sərkərdəsi Napoleonun bir deyiminə istinad edirdi. Napoleon deyərmiş ki, müharibə qərarının verilməsinə və müharibənin aparılmasına o qədər amillər təsir göstərir ki, yalnız bu amillərin sayını müəyyənləşdirmək üçün Nyuton kimi bir riyaziyyatçıya ehtiyac vardır. Klauzevits sonra onu da əlavə edirdi ki, bu sonsuz sayda amillərin arasından ən düzgün seçimi edə bilmək və həmin seçimin ən səmərəli həllinə nail olmaq Ali Baş Komandandan böyük zəka, duyum və fədakarlıq tələb edir. Belə olmasa döyüşdən qalib çıxmaq da mümkün olmaz. İlham Əliyev də Ali Baş Komandan kimi məhz belə keyfiyyətlərə malik olduğu üçündür ki, Ermənistanın və onun havadarlarının çox uzaqlara hesablanmış məkrli planlarının icrasının qarşısını uğurla almaq mümkün oldu.

Tovuz zəfərinə aparan yol da Ali Baş Komandanın düzgün rəhbərliyindən və onun qəbul etdiyi düzgün qərarlardan başladı. Bu zəfəri həm də böyük qələbənin ərəfəsi saymaq olar. Həmin günün daha yaxında olduğunu isə Ali Baş Komandanın bəyanatlarından da hiss etmək mümkündür. Bu bəyanatlar həm də onu əminliklə deməyə imkan verir ki, böyük zəfərin addım-addım yaxınlaşdırılması, Azərbaycan bayrağının işğal olunmuş ərazilərə sancılması üçün Ali Baş Komandanın uğuru şübhə doğurmayacaq və son nəticəyə hesablanmış strateji xətti vardır: "O ki qaldı, bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Mən hələlik bundan artıq heç nə demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Azərbaycanda hadisələri qabaqlamağı heç kimə məsləhət görmürəm. Buna ehtiyac yoxdur. Bu, zərərli ola bilər. Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz. ...biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır".

Tovuz hadisələrindən dərhal sonra İlham Əliyevin verdiyi "Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq" bəyanatının həyata keçəcəyi gün indi çox da uzaqda deyil. Bunu həm döyüş xətlərində, həm beynəlxalq aləmdə əldə edilən uğurlar və bir də Ali Baş Komandanın inamlı qətiyyəti deməyə əsas verir. Həmin gün, heç şübhəsiz ki, Azərbaycan xalqının haqq işinin təntənəsi, Ali Baş Komandanın isə zəfər günü olacaqdır.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi etikanın əsasları. Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər, bölmədə sağlam əhval-ruhiyyənin yaranmasında kollektivin rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**
**1. Hərbi etikanın əsasları.**
**2. Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları.**

### *Hərbi etikanın əsasları*

Etika qədim yunan dilində "şəxsin əxlaqi baxımdan adət və xasiyyəti" mənasını ifadə edən "etnos" kəlməsindən törəmişdir. Etikanın əsas mövzusu əxlaq anlayışıdır. Etika insanların həm ayrı-ayrı fərdlərlə, həm də ictimaiyyətlə münasibətlərin təməlini təşkil edən dəyərlər, normalar, qaydalar, səhv-düz və ya yaxşı-pis kimi xüsusiyyətləri əxlaqi baxımdan öyrənən fəlsəfi nizamdır. Etika faydalı, yaxşı, pis, doğru və yanlış kimi məfhumları tətbiq edən fərdi və ya qrup davranış və münasibətlərində nəyin məqbul, nəyin qeyri-məqbul olduğunu müəyyən edən əxlaqi tezislər, dəyərlər və standartlar sistemidir.

Əxlaqi münasibətlər ictimai münasibətlər sistemində mühüm yer tutur ki, bunlar da əxlaq haqqında elm olan "etika" tərəfindən öyrənilir. Əxlaqın məkanı - insanlar arasındakı münasibətlərdir. İnsanın güclü və ağıllı olmasını müəyyən etmək üçün onu digər insanlarla görmək və ya müqayisə etmək vacib deyil, çünki bu, fərdin özünəxas xüsusiyyətləridir. Lakin insanın nə dərəcədə xeyirxah, əliaçıq, mehriban olmasını və bu kimi digər xüsusiyyətlərinin şahidi olmaq üçün onu məhz başqaları ilə ünsiyyət prosesində görmək zəruridir.

İnsani əxlaq şüurla birgə doğulmur. O, əxlaq normalarını və davranış qaydalarını tədricən mənimsəyir. Bu normalar və qaydalar müəyyən vaxtdan sonra onun fərdi şüurunda özünə yer tapır ki, bu da "yaxşını pisdən" ayırmağa kömək edir. İnsan çox vaxt hətta öz istəyinin əksinə gedərək, ictimai rəyi nəzərə alıb, hamı tərəfindən qəbul edilmiş davranış qaydalarına və əxlaq normalarına uyğun hərəkət etməli olur. Çünki cəmiyyətdə yaşayan insan ondan təcrid oluna bilməz. O, bu və ya digər mənada cəmiyyət qanunlarına tabe olmaq məcburiyyətində qalır. Çox vaxt, əsasən, "öz ürəyinin hökmü ilə" hərəkət edən insan cəmiyyət və ayrı-ayrı şəxslər qarşısındakı borc və vicdan hisslərinin təhriki ilə hər hansı addımı atır və bu zaman özü də hiss etmədən ictimai mənafe şəxsi mənafedən üstün tutulur. Belə olmasaydı, nə maddi-mənəvi nemətlər istehsal oluna bilər, nə də insan cəmiyyəti mövcud ola bilərdi.

Peşə etikası insanların peşə fəaliyyəti ilə əlaqədar aralarındakı münasibətlərin mənəvi xarakterini təmin edən davranış kodeksidir. Bir çox əxlaq normalarının ümumbəşəri xarakter daşımasına baxmayaraq (yəni, bu prinsiplərin hər bir insana aid olması, məsələn, bütün fəaliyyətin borc, vicdan, sədaqət prinsipləri, dostluq, yoldaşlıq münasibətləri əsasında qurulması, böyüklərə hörmət etmək, yalan danışmamaq və s.), müxtəlif peşələrlə əlaqədar fəaliyyət növlərinin də özünəməxsus davranış normaları var.

Hərbi xidmət - insanlardan yüksək intizam, icraçılıq, dəqiqlik, təmkinlilik, dözümlülük və çeviklik tələb edən fəaliyyət sahəsidir. Hərbi qulluqçuların xidməti fəaliyyət və ondan kənar vəziyyət şəraitində davranış, müvafiq hərəkət və hadisələrə düzgün reaksiya vermə qabiliyyətini formalaşdıran əxlaqi normalar öz əksini hüquqi sənədlərdə, qanunlarda, nizamnamələrdə, təlimatlarda, komandirlərin əmrlərində tapır. Buna görə əxlaqi tələblər qanun qüvvəsinə minir. Məsələn, qorxaqlıq cəmiyyətdə insanın psixoloji durumunun keyfiyyət göstəricisi kimi yalnız mənəvi baxımdan pislənirsə, hərbi kollektivdə aşkar edilən qorxaqlıq isə çətin məqamda döyüş tapşırığının uğurla yerinə yetirilməsinə mane olan zərərli və təhlükəli bir amil kimi aradan qaldırılmalıdır.

Odur ki, hərbi qulluqçuların qarşısında həmişə hərbi-etik normalardan irəli gələn yüksək tələblər qoyulur. Bununla belə, əxlaq qanunlara, nizamnamələrə korkoranə tabe etdirilmir. Əksinə, Azərbaycan Ordusunda hərbi xidməti tənzimləyən bütün hüquqi sənədlər, o cümlədən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət, İntizam, Qarnizon və Qarovul Xidmətləri və Sıra nizamnamələri Vətən qarşısında borcun yerinə yetirilməsində könüllülüyün, şüurluluğun, təşəbbüskarlığın vacibliyini vurğulayır.

Hərbi xidmətə çağırılan hər kəs Vətənimiz Azərbaycana sadiq olacağına, hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirəcəyinə, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağına təntənəli surətdə and içir.

Hərbi borcunu daim nümunəvi yerinə yetirən hər bir bacarıqlı döyüşçü yüksək mənəviyyata malikdir. Hərbi borcu həm də ləyaqətlə yerinə yetirmək hərbçinin şərəf işidir. Öz vəzifəsinə layiqincə yanaşmaq hərbi qulluqçulardan bəzən böyük çətinlikləri dəf etməyi tələb edir. Hərbi kollektivin uğuru onun hər bir üzvünün fəaliyyətindən asılıdır. Əgər hamı öz vəzifəsinə Hərbi andın, nizamnamələrin tələblərinə uyğun yanaşırsa, deməli nailiyyət labüddür.

Hərbi etikanın vacib normalarından biri hərbi kollektivdə böyüyə hörmət etmək, subardinasiya qaydalarına riayət etməkdir. Vəzifəcə və rütbəcə kiçik olanlar rəisləri nizamnaməyə uyğun olaraq əsgəri qaydada birinci salamlayır və onlara rütbələri ilə müraciət edirlər.

Hərbi qulluqçular öz aralarında da nəzakətli olmalı, bir-birinə "siz" deyə müraciət etməlidirlər. Bu qayda rəislərə də, onların tabeliyində olanlara da eyni dərəcədə şamil edilir.

Azərbaycan zabiti və əsgəri adını daşıyan hər kəs öz yüksək mədəniyyəti, nəzakəti, təvazökarlığı ilə nümunə olmalıdır. İctimai yerlərdə, nəqliyyatda hərbi qulluqçu rütbəcə böyük olan zabiti, rəisi salamlamalı və ona hörmət etməlidir.

Hərbçilər mülki əhaliyə qarşı da nəzakətli davranmalı, Azərbaycan zabiti və ya əsgəri adını uca tutmalı, bu şərəfli ada ləkə gətirməməlidirlər. Bədbəxt hadisələr zamanı biganə qalmamalı və bacardıqları köməyi göstərməlidirlər. Hər bir döyüşçü səliqəli geyinməli, əlini cibində saxlamamalı, rəisinin və ya komandirinin yanında qeyri-etik hərəkətlərə yol verməməlidir.

Hərbi qulluqçunun mənəvi simasını göstərən cəhətlərdən biri də onun danışığıdır. Ünsiyyət zamanı aydın, səlis və inandırıcı sözlərə üstünlük vermək lazımdır.

### *Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları*

"Kollektiv" latın sözü olub "toplanmış", "yığılmış", "birləşdirilmiş", "birləşmiş" mənalarını verir. Kollektiv insanların şüurlu şəkildə toplanmış birliyi və ictimai fəaliyyətin yerinə yetirilməsi üçün birgə fəaliyyətidir. Kollektiv müxtəlif olur. O, insanlar arasında münasibət formalarına və fəaliyyətin xarakterinə görə fərqlənir. Bu birgə insan fəaliyyəti içərisində hərbi kollektiv xüsusi yer tutur.

Hərbi kollektiv - ölkənin və onun sərhədlərinin xarici təcavüzdən silahlı müdafiəsini təmin etmək üçün vahid komandanlıq prinsipi əsasında toplanmış hərbçilərin sarsılmaz birliyidir. Hərbi kollektiv - geniş anlayışdır. Azərbaycan Ordusu, qoşun birləşmələri - korpus, briqada, tabor, bölük, taqım hərbi kollektivlərdir. İlk kollektivlər də vardır. Azərbaycan Ordusunda ilk kollektivlər taqım və bölüklərdir. Burada hərbçilər bir-biri ilə fasiləsiz iş, məişət və digər əlaqədədirlər. İlk kollektivlər əsasən iki vəzifəni yerinə yetirirlər: 1. Peşəkarlıq (istehsalat, hərbi və s.); 2. Vahidlik və tərbiyəçilik. Başqa sözlə desək, kollektiv tərbiyənin və hərbi (əmək) fəaliyyətinin subyekti, eyni zamanda, obyektidir.

Hərbi kollektivlər də belədir. Döyüş (əmək) hazırlığı yüksək olan kollektivin tərbiyəvilik imkanları böyük olur. Tərbiyəvilik imkanları yüksək olan kollektivin də döyüş imkanları yüksək olur.

Kollektiv şəxsiyyətə təsirlərin bələdçisidir. Kollektiv vahid bir orqanizmin müstəqil həlqəsidir. Burada insanların fəaliyyəti birləşir və onlar birbaşa və ya dolayısı ilə ünsiyyətdə olur, ya bir-birinə, ya da kollektivə təsir göstərirlər. Kollektivin hərbçilərə təsir imkanları onun təbiəti, quruluşu və xarakter xüsusiyyətlərindən irəli gəlir. Hər bir bölmə Azərbaycan Ordusunun canlı bir hissəsidir, eyni zamanda, onlar həm bir-biri ilə, həm də digər kollektivlərlə möhkəm bağlıdırlar. Mənəvi birlik hərbi kollektivlər üçün xarakterik cəhətdir.

Hərbi kollektivdə mövcud olan qarşılıqlı münasibətlər - hərbi qulluqçuların həyatında, hərbi xidmətində ünsiyyət zamanı yaranan münasibətlər sistemidir. Qarşılıqlı münasibətlərin müsbət - mənfi, xeyirxah - konfliktli, formal - qeyri-formal kimi müxtəlif növləri mövcuddur. Hərbi xidmətdə "komandir - tabeçilikdə olan", "böyük - kiçik", "tabeçilik münasibətləri olmayan hərbi qulluqçuların münasibətləri'" formal qarşılıqlı münasibətlərə misal ola bilər.

Qeyri-formal qarşılıqlı münasibətlər psixoloji cəhətdən əlverişli şəraitdə heç kəs tərəfindən müəyyən olunmadan öz-özünə yaranır. Onlar yarandıqdan sonra mühüm psixoloji reallığa çevrilir: qeyri-formal qarşılıqlı münasibətlər simpatiya və antipatiyanın görünməz telləri ilə kollektivə nüfuz edərək, istər hər bir döyüşçünün, istərsə də bütövlükdə kollektivin fəaliyyətinə müəyyən təsir göstərir və müvafiq psixoloji iqlim yaradır. Onların məzmunu kollektivin inkişaf səviyyəsindən bilavasitə asılıdır.

Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər vahid komandanlıq, ciddi subordinasiya, humanizm və kollektivçilik prinsipləri əsasında qurulur. Bu prinsiplər hərbçilərə verilən əsas tələblərlə şərtlənir. Onlar bir-birinə münasibətdə komandir və tabeçi, rütbəcə böyük və kiçik olaraq dəqiq müəyyənləşdirilmiş hüquq və vəzifələr daşıyırlar. Komandirə əmr etmək hüququ verilir, tabeçilər əmr və tapşırıqları sözsüz və dəqiq yerinə yetirməyə, rəislərə, komandirlərə, rütbəcə böyüklərə hörmət, hərbi nəzakət göstərməyə və hərbi salam verməyə ciddi riayət etmək borcu şamil olunur.

Hərbi xidmətə çağırılan hər bir kəs ordu kollektivinin bir üzvünə çevrilir və silahdaşları ilə nizamnamələrin tənzimlədiyi ictimai və qarşılıqlı münasibətlərə girir. Hərbi nizamnamələr ordunun xüsusiyyətini və qarşısında duran vəzifələri nəzərə almaqla hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin prinsiplərini müəyyən edir.

Vahid rəhbərlik, təkbaşçılıq və hərbi-etik normalar kollektivdə sağlam və işgüzar iqlimin yaradılmasında aparıcı rol oynayan komandir və rəislərin tabeliyindəkilərə qarşı kifayət qədər tələbkar olmalarını, sonuncuların isə verilmiş əmr və tapşırıqları sözsüz və dəqiq yerinə yetirmələrini, yuxarıda qeyd edildiyi kimi, rütbəcə böyüklərə hörmət göstərmələrini, hərbi salam və nəzakət qaydalarına ciddi əməl etmələrini nəzərdə tutur.

Bir rəhbər və hərbçi-pedaqoq kimi rəis yalnız sözlə, komanda və əmrlə deyil, işə və insana münasibəti ilə də tabeliyindəkilərə təsir göstərir. Tələbkarlıqla yanaşı, zabit həm də qayğıkeş və ədalətli olmalı, hərbi qulluqçular arasında qarşılıqlı inam və səmimiliyin, döyüş yoldaşlığının bərqərar olunmasına çalışmalıdır. Qayğı və inamın mənəvi-psixoloji amil kimi mühüm əhəmiyyəti ondadır ki, döyüşçülərdə nəinki öz komandirlərinə etimad və hörmət hissi aşılayır, eyni zamanda, öz hərbi borcunu ləyaqətlə yerinə yetirməyə həvəs yaradır.

Hərbi qulluqçular arasında kollektivçilik prinsipi nizamnamələrdə geniş yer tutur. Əsgər, çavuş, gizir və zabitlər arasında kollektivçilik, döyüş yoldaşlığı həm əxlaqi, həm də hüquqi norma kimi təzahür edir. Nizamnamələr hərbçilərdə döyüş yoldaşlığını uca tutmağı, sözdə və əməldə silahdaşlarına kömək etməyi, onları nalayiq hərəkətlərdən çəkindirməyi tərbiyə edir.

Əsgər və matroslar arasında münasibətlər döyüşçülərin hərəkət və davranışına, onlarda bir çox şəxsi mənəvi keyfiyyət və vərdişlərin formalaşmasına bilavasitə və ciddi təsir göstərir. Ona görə tabeliyindəkilərə müvəffəqiyyətlə rəhbərlik etmək, hərbi kollektivi möhkəmləndirmək üçün həmin münasibətləri hər bir zabit və çavuş yaxşı bilməlidir.

Hər bir hərbi kollektivdə təlim və döyüş tapşırığını birgə yerinə yetirərkən, ictimai işlərdə, məişətdə əsgər və matroslar arasında, adətən, qarşılıqlı rəğbət və bağlılıq, dostluq və qardaşlıq hissləri yaranır, döyüşçülər vaxt və qüvvə əsirgəmədən hərbi texnikanın sirlərini öyrənməkdə, çətin məqamlarda bir-birinə kömək edir, bir-birinin uğuruna sevinirlər.

Bununla belə, sıravi döyüşçülərin arasında nizamnamə tələblərinin pozulması halları da müşahidə edilir. Bu, adətən nizam-intizamın vəziyyəti ilə, zabit və çavuşların öz vəzifələrinə kifayət qədər ciddi yanaşmamaları ilə, əsgər və matrosların orduyaqədərki həyat tərzi və vərdişləri ilə izah olunur. Əsgər və matroslar arasında göstərilən mənfi hallar komandir və rəislərdən tərbiyə işinin gücləndirilməsini, neqativ halları doğuran səbəblərin vaxtında aradan qaldırılmasını tələb edir.

Hərbi kollektivlərdə bəzən bir neçə hərbi qulluqçunun birləşdiyi kiçik qrupların yaranması hallarına da təsadüf edilir, bu qruplar ümumi maraq, fəaliyyət və hərbi xidmətə münasibət zəminində ortaya çıxırlar. Hətta ən mehriban kollektivlərdə belə iki və bir neçə nəfərdən ibarət belə qruplar yaranır. Çox vaxt bu qruplar öz silahdaşlarına müsbət təsir göstərir, hərbi kollektivi möhkəmləndirən amil rolunu oynayırlar. Ancaq bəzən özünü kollektivə qarşı qoyan qruplar da əmələ gələ bilər. Belə qruplara qarşı mövqeni düzgün müəyyənləşdirməklə, həm obyektiv amilləri, həm də də daxili-psixoloji motivləri üzə çıxarmaq olar.

Ona görə komandirlər və ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər üçün kollektivlərdə mövcud olan qarşılıqlı münasibətlərin konkret təzahürlərini bilmək, onları təhlil etmək, mənfi halların yaranması və inkişafının səbəblərini vaxtında aşkara çıxarmaq, nizamnamələrin tələblərinə uyğun qarşılıqlı münasibətlərin düzgün vasitə və yollarını seçmək vacibdir.

Hərbi-etik davranış xüsusiyyətləri hərbi xidmət nizamnamələrində öz əksini geniş şəkildə tapmışdır və həmin normalar zabitlərimiz üçün qarşılıqlı münasibətlərin tənzimlənməsinə, ordu kollektivində möhkəm hərbi intizamın təşəkkül tapmasına xidmət edən yararlı istifadə mənbəyidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib

*Ermənistanın Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində həmləsinin qarşısı qətiyyətlə alındı. Onlarla canlı qüvvəsi, zirehli texnikası məhv edilən düşmən geri çəkildi. Atəşkəs olsa da, müharibə hələ başa çatmayıb. Müharibədir və müharibə döyüş deməkdir. Döyüşdə itkilər də olur. İyul döyüşlərində general-mayor Polad Həşimov da şəhid oldu. Xidməti boyunca həmişə özünü Vətənin əsgəri hesab edən general ölümü ilə ölümsüzlüyün nə olduğu duyğularını ictimaiyyətə yaşatdı, düşmənə isə məğlubiyyətin necəliyi duyğularını. Cəsarəti və hünəri ilə Vətəni necə sevməyin, onun uğrunda necə vuruşmağın və necə şəhid olmağın düsturunu təzələdi.*



"İnsan var evdən gedir, insan var eldən" məsəlini xatırlayıram. General-mayor Polad Həşimovun şəhidliyi də bu atalar sözünün mahiyyətinə uyğundur. Eldən gedənlərin ölümü daha ağrılı olur. Onu yaxından tanıyanlar da, xidmət yoldaşları da generalın döyüşünü, şəhidliyini Vətən sevgisinin təzahürü bilir. Bu şəhidlik ictimaiyyətdə təəssüflər yaratdı. Bu təəssüfü sevgi yaratmışdı. Azərbaycan Ordusuna sevgi, Azərbaycan Ordusunun şəhid zabitinə, generalına sevgi. Şəhidlik Vətənə görə olur; şəhidlik müqəddəsdi. Müqəddəs şəhidliyin doğurduğu təəssüf də həmişə müqəddəs olur…

Ölüm xatirələrə toxuna bilmir. General-mayor Polad Həşimovla bağlı xatirələr onu tanıyanların yaddaşlarında, sonralar tarixdə yaşayacaq. Əbədiyyən yaşayacaq.

Polad Həşimov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı olanda Qarabağ müharibəsində iştirak etmişdi, Ağdam istiqamətində döyüşmüşdü. Yəni, müharibənin qan rəngli üzü ona yaxşı tanış idi.

Polad Həşimov 1975-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta məktəbdə müəllimlərinin sevimli şagirdlərindən biri kimi tanınıb. Hüquqşünas olmaq istəyirdi. Onun balaca ürəyini bu arzu isidirdi. Sonralar fikrini dəyişdi. Niyə?

Qarabağ ətrafında qanlı hadisələr yenicə başlamışdı. Birinci Qarabağ müharibəsində onun yaşadığı binadan bir neçə vətənpərvər gənc çağırış vərəqi gözləmədən döyüşə getmişdi. Yaqub İsmayılov və Aslan İsmayılov döyüşlərdə şəhid olmuşdu. Bu iki şəhidin barelyefi bir vaxtlar yaşadıqları binaya vurulmuşdu. Orta məktəb şagirdi olan Polad hər gün onların şəklini görür, baxışlarının dediklərini yaddaşına köçürürdü. Kim bilir, bəlkə də onun hərbçi olmaq istəyi hüquqşünaslığı bu məqamlarda üstələyib.

General-mayor Polad Həşimov haqqında eşitdiklərim, sağlığında özüylə söhbətlərim mənə Vətən sevgisinin işığını xatırladır. Onun ömrü işıqlı ömür idi. Bu işıq əbədiyyən azalmayacaq. Çünki generalın xidmətdə sədaqəti, Vətənə sevgisi, döyüşlərdə bacarığı və cəsarəti neçə-neçə əsgərin, zabitin ömründə davam edəcək.

General-mayor Polad Həşimovla müxtəlif vaxtlarda görüşmüşəm, söhbətləşmişəm.

Qarlı, şaxtalı bir gündə tanış olmuşduq. Onda Polad Həşimov polkovnik-leytenant rütbəsində ön xətdə yerləşən "N" hərbi hissəsinin komandiri idi. Qısa tanışlıqdan sonra söz-sözü çəkdi, söhbətimiz ədəbiyyatla davam etdi. O, dünya və Azərbaycan ədəbiyyatından həvəslə, maraqla danışırdı. "Dənizin suyunun duzlu olduğunu bilmək üçün onu bütöv içmək lazım deyil. Sadəcə, bir damcısını dilinə vuranda görürsən ki, göz işlədikcə uzanıb gedən dəniz duzludu" kəlamını xatırlatdım. Baxışlarını incə bir təbəssüm bürüdü. Böyük filosof Sokrat deyib ki, danış səni tanıyım. Danışdıq, tanıdım.

Hiss etdim ki, polkovnik-leytenant rütbəli bu zabitin böyük ziyalılıq təfəkkürü, geniş dünya görüşü, dünya duyumu var. Mütaliəni sevir, oxumaqla kifayətlənmir, oxuduqlarını zabit yoldaşlarıyla da, əsgərlərlə də bölüşür. Deyirdi ki, şəhərə yolu düşəndə geri mütləq yeni kitablarla qayıdıram.

Oxuyub bitirə bilmədiyi əsər Azərbaycan romantizminin banisi Hüseyn Cavidin "İblis" dramı olub. Bəlkə də general bu əsəri oxumaqla iblislərin - ermənilərin murdar xislətini daha dərindən tanımaq istəyirmiş.

Komandir kimi həmişə tabeliyində olan zabit və əsgərlərin qayğısına qalmağa çalışırdı.

Onunla növbəti görüşümüz 2016-cı ilin Aprel döyüşlərində ola bilərdi. Amma gərgin əməliyyatlar və yaranmış mövcud şərait buna imkan vermədi. Görüşümüz baş tutmadı. Eyni istiqamətdə, eyni hərbi hissədə olsaq da, əməliyyat şəraitinə görə buna imkan olmadı. Bircə onu öyrənə bildim ki, polkovnik-leytenant Polad Həşimov ön xətdədir, döyüşlər başa çatana kimi gözlərinə yuxu getməyib.

Aprelin 3-də səhər ön xəttə getməli olduq. Əgər Talış kəndi istiqamətinə getsəydik, onunla görüşəcəkdik. Bu ara geri qayıtmağımızı əmr etdilər. Onunla görüşmək imkanını itirdik…

2017-ci ildə onunla Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində görüşdük. Polad Həşimov polkovnik idi. Mən Aprel döyüşlərində onunla görüşə bilmədiyimin təəssüfündən söz açdım, o, əsgərlərinin xidmətindən. O qədər sevgilərlə danışırdı ki!..

General-mayor hərbi rütbəsi 2016-cı ilin Aprel döyüşlərindən sonra verilmiş Polad Həşimov Tovuz istiqamətində gedən döyüşlərdə şəhid oldu. 45 yaş. Bir anlıq xatırladım ki, türk generalı Ənvər Paşa da 45 yaşında həlak olub…

...Generalın dəfni izdihamlı keçdi. Xalq II Şəhidlər xiyabanına, şərəfli, şanlı ordusunda xidmət edən generalının dəfninə elliklə gəlmişdi. Onu son mənzilə yola salanların sırasında mən də vardım.

Generalın ailəsində üç övladı böyüyür. Övladlarından biri qız, ikisi oğlandır. Teymur da, Davud da atası ilə fəxr etdiyini, onun kimi yaşayacağını deyir. Onlar xalqa, dövlətə layiqli övladlar kimi böyüyəcəklər.

Xalq general-mayor Polad Həşimov kimi qəhrəmanları da, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediklərini də unutmayacaq: "Bir daha demək istəyirəm ki, görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Mən Təhlükəsizlik Şurasının toplantısında artıq demişdim ki, Azərbaycan əsgər və zabitlərinin qanı yerdə qalmamalıdır. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr, əminəm ki, onlara yaxşı dərs oldu. Ancaq buna baxmayaraq, dünən və srağagün onlar tərəfindən yenidən çirkin addımlar atılmışdır, növbəti dəfə hərbi təxribat törədilmişdir və bu təxribat nəticəsində yenə də bir neçə hərbçimiz, o cümlədən general Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar.

Bu gün səhər saatlarında general Polad Həşimovun anası Səmayə xanımla telefonla danışdım, ona başsağlığı verdim, Allahdan səbir dilədim. Onu əmin etdim ki, oğlunun, bizim qəhrəmanımızın qanı yerdə qalmayıb, onun qisası alındı və bundan sonra da alınacaqdır. Belə analara eşq olsun ki, xalqımız, dövlətimiz üçün bu cür övladlar, igidlər yetişdirib.

Bildirməliyəm ki, general Polad Həşimov orduda çox böyük hörmətə malik olan bir insan idi. Aprel döyüşlərində öz rəşadətini göstərmişdir. Mənim tərəfimdən iki dəfə yüksək dövlət ordeni ilə təltif edilmişdir. Mənim tərəfimdən ona general rütbəsi verilmişdir. Polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə bu gün söhbət zamanı atasının qəhrəmanlığı haqqında danışdım. Dedim ki, o, atasına oxşamalıdır, bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib"…

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə "İldırım-6 Qara cəhənnəm" antiterror əməliyyatı başlayıb



Türkiyənin Bingöl vilayətində "İldırım-6. Qara cəhənnəm" adı altında növbəti antiterror əməliyyatının həyata keçirilməsinə başlanıb.

Bu əməliyyata 747 nəfərlik şəxsi heyət və zirehli texnika cəlb olunub. Bildirilir ki, bundan əvvəl "İldırım" adı ilə təşkil olunan 5 antiterror əməliyyatında ümumilikdə 22 terrorçu zərərsizləşdirilib. Əməliyyatlar nəticəsində terrorçulara məxsus 31 mağara, sığınacaq və silah-sursat anbarı məhv edilib.

Milli Müdafiə Nazirliyinin məlumatında isə bildirilir ki, Türkiyə qırıcılarının İraqın şimalındakı Zap bölgəsində yerləşən terror düşərgələrinə endirdiyi dəqiq aviazərbələr nəticəsində iki PKK terrorçusu zərərsizləşdirilib.

### İran Prezidenti: Biz strateji silah üzərində iş aparırıq



Avqustun 20-si İranda müdafiə sənayesi günüdür. İranın Müdafiə Nazirliyi bu münasibətlə turbo tipli raket mühərrikini və iki yeni qanadlı ballistik raketi təqdim edib.

Videokonfrans vasitəsilə keçirilən təqdimat mərasimində İranın Müdafiə naziri Əmir Xatəmi "Əbu Mehdi" və "Hacı Qasım" adlı raketlərin texniki və taktiki xüsusiyyətləri barədə Prezident Həsən Ruhaniyə məruzə edib. Nəzərə çatdırılıb ki, idarə olunan raketlər uzaq mənzilli hədəfləri dəqiq vurmaq imkanına malikdir.

Prezident Həsən Ruhani ölkənin hərbi sənayesində çalışanları təbrik edərək bildirib ki, İran hərbi sənayenin inkişafı sahəsində son altı ildə dünyada 23-cü yerdən 14-cü pilləyə yüksəlib. Bu isə onu deməyə əsas verir ki, İranın müdafiə sənayesinin inkişafı ölkəmizin müdafiə qabiliyyətini də gücləndirib.

Dövlət başçısı nəzərə çatdırıb ki, biz strateji silah üzərində iş aparırıq. Bu da İrana hücum etmək planlarına mane olur. Mərasimdən sonra həmin raketlər İran Müdafiə Nazirliyinin sərəncamına verilib.

### Kiyevdə ABŞ və Türkiyə səfirliklərinin binalarına bomba qoyulması barədə yalan məlumat verən Ermənistan vətəndaşını altı illik həbs gözləyir



Kiyevdə ABŞ və Türkiyə səfirliklərinin binalarına bomba yerləşdirilməsi barədə yalan məlumat verən 46 yaşlı Ermənistan vətəndaşının 6 il müddətinə azadlıqdan məhrum ediləcəyi gözlənilir.

Ermənistan vətəndaşı avqustun 1-də "qaynar xətt"ə zəng edərək ABŞ və Türkiyə səfirliklərinin minalanması barədə yalan məlumat verib. Yoxlamalar zamanı səfirliklərdə hər hansı minalanma faktı aşkarlanmayıb. Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində yalan məlumat verən şəxs aşkarlanaraq saxlanılıb.

### ABŞ sentyabrın 21-nə qədər Meksika və Kanada ilə sərhədləri açmayacaq



ABŞ Daxili Təhlükəsizlik Nazirliyinin katibi vəzifələrini icra edən Çad Vulf sentyabrın 21-nə qədər Meksika və Kanada ilə sərhədlərin açılmayacağını elan edib.

Kanadanın İctimai Təhlükəsizlik naziri Bill Bler də ABŞ-ın cənub qərbində koronavirusa yoluxma hallarının artması səbəbindən bu qərarı dəstəklədiyini bildirib.

Buna baxmayaraq yük maşınlarının sürücüləri, tibb işçiləri və aviakompaniya ekipajlarına əvvəlki kimi sərhədi keçməyə icazə verilib. Qadağa evlərinə qayıdan amerikalılara və kanadalılara da aid edilmir.

**AZƏRTAC-ın materialları əsasında**

*Əsgər dostluğu*

# “Hər birimiz dostuq, qardaşıq”



Hər birimiz yaxın qohumlarımızın, qonşularımızın hərbi xidmətə necə yola salınmasının şahidi olmuşuq. Əsgər valideynlərinin övladları ilə necə fəxr etdiklərini görmüşük. Böyüklər hərbi xidmətə yola düşən gənclərə öz məsləhətlərini verirlər. Əsgəri xidmətə gedən gənclər də Vətənimizin keşiyində şərəflə dayanacaqlarına, müqəddəs vəzifəni layiqincə yerinə yetirəcəklərinə söz verirlər. Onlara baxanda biz də tezliklə böyüyüb, Vətənimizin müdafiəsində dayanan igidlərin sıralarına qatılmaq istəyirdik. Ancaq o vaxtlar evdə valideynlərimiz, məktəbdə isə müəllimlərimiz hər şeyin öz vaxtı olduğunu deyərdilər. Məsləhət bilərdilər ki, hərbi xidmətə qədər təhsil ocağında öyrədilənləri dərindən mənimsəyək. Bizlər də məsləhətə əməl edərək tariximizi, dilimizi mükəmməl öyrənir, ölkəmizin yerləşdiyi coğrafi ərazi haqqında daha çox məlumat əldə etməyə çalışırdıq. Boş yerə deməyiblər ki, öz keçmişini unudan xalqın gələcəyi də olmaz. Dövlətin gələcəyi ordusunun güclü olmasından da keçir. Artıq bu gün güclü dövlətimiz və müasir standartlara cavab verən ordumuz var. Ordunun gücü onun sıralarında xidmət edən hərbi qulluqçuların savadı və bacarığı ilə ölçülür. Həmçinin şəxsi heyət arasında hökm sürən sağlam münasibət də vacib amillərdəndir.

Düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdə hərbi qulluqçular arasında olan münasibətlərin nizamnamələrlə tənzimləndiyini gördük. Əsgərlər verilən əmr və tapşırıqları vaxtında yerinə yetirir, komandirlər isə tabeliyində xidmət edənlərdən diqqət və qayğılarını əsirgəmirlər. Onlar da xalqımız kimi üçrəngli bayrağımızın altında yumruq kimi birləşiblər. Bu birlik sayəsində xalqımızın, dövlətimizin gücünü heç bir qüvvə sarsıda bilməz. Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində belə birliyin şahidi olduq. Zabit Ceyhun Rzayev dedi ki, ordumuzun qüdrəti birliyimizdədir. "Burada hər birimiz dostuq, qardaşıq. Danılmazdır ki, silah dostu ömür dostudur. Hərbi xidmətə gələn gənclərimiz bir-birini tanıyır, dostlaşırlar. İsa Haqverdiyevlə Həsənağa Feyziyevin dostluqlarının bünövrəsi hərbi xidmətdə qoyulub".

Zabitlə söhbətdən sonra dostlarla tanış olduq. Üstbaşlarının səliqəsi, qısa və lakonik söhbətləri əsgərlərimizin nizam-intizamından xəbər verirdi.

- Hərbi xidmətə çağırış vərəqəsi gələndə sevincimin həddi-hüdudu yox idi, - deyə əsgər İsa Haqverdiyev söhbətə başladı. - Vətənimiz məni çağırırdı. Xidmətə gəldiyim ilk gündən çalışıram ki, hər an döyüşə hazır olum. Bu yolda komandirlərimizin əməyi böyükdür. Həyatımızın hər məqamında yanımızda olan bir insan var. Ona güvənir, sirrini ona danışır, çətinliyin olanda onun köməyinə ehtiyac duyursan. Bir sözlə, ona söykəyirsən. Bu gün mənim üçün belə insan Həsənağa Feyziyevdir. Ona güvənim sonsuzdur. Hər an Ali Baş Komandanımızın "İrəli" əmri ilə dostumla birgə düşməni işğalda olan torpaqlarımızdan qovub çıxarmağın arzusu ilə yaşayıram. Bizlər doğulduğumuz torpağın ən yaxın dostları kimi dar gündə onun harayına yetişməliyik. Soydaşlarımızın yaşadığı vəhşiliklərin qisasını almalıyıq. Bunun üçün hər gün döyüşə gedirik kimi hazırlaşırıq. İnanıram ki, dostumla çiyin-çiyinə döyüşə gedəcəyimiz gün uzaqda deyil. Tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal olunan torpaqlarımızı azad edəcəyik.

Əsgər Həsənağa Feyziyev də dostsuz həyatın mənasız olduğunu dedi. "Belə müqəddəs vəzifənin öhdəsindən dostumla birlikdə gəlmək isə həm şərəfli, həm də qürurverisidir. Döyüş postuna gəldiyim ilk gündən İsanın nümunəvi xidməti, Vətən sevgisi, döyüş ruhu mənə müsbət təsir edib. Onun kimi nümunəvi xidmət etmək, layiqli əsgər olmaq üçün əlimdən gələni edirəm. Böyüklərimizdən dostluqda dürüst və sadiq olmağı öyrənmişik. Bu səbəbdən bizim dostluğumuz səmimi və möhkəmdir. Əsgəri xidmətdən sonra da dostluğumuzu davam edəcək. Biz silah yoldaşıyıq. Döyüş əmri verildiyi an xalqımızın qisasını birlikdə alacağıq. Həmin gün uzaqda deyil".

Əsgərlərimiz arasında bu cür səmimi və mehriban münasibəti görmək bizi çox sevindirdi. Düşmənə olan nifrətləri onları bir-birilərinə daha möhkəm bağla birləşdirib. Biz də bu igid dostların sədalarının torpaqlarımızı işğaldan azad edən oğullarımızın sıralarından gəlməsini arzulayırıq.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# Mexanikləşdirilmiş ağır körpü



Müasir hərbi əməliyyatlar zamanı bir çox çətin yol şəraitinə, süni və təbii maneələrə rast gəlinir. Bu maneələri aradan götürmək üçün (tank, dartıcılar, avtomobillər və s.) metal körpü və keçidlərin quraşdırılması çox vacibdir. Bunun əsas çıxış yolu mexanikləşdirilmiş körpülərin yaradılmasıdır. Bu məqsədlə Omsk Maşınqayırma Konstruktor Bürosu və Nəqliyyat Maşınqayırma zavodu tərəfindən mexanikləşdirilmiş (TMM-6) körpünün istehsalına başlandı.

Müasir ağır mexanikləşdirilmiş körpü qoşunların su (çay və kanallardan) keçidlərindən, eni 102 metr, dərinliyi isə 5 metr olan quru (yarğan, çuxurlardan) maneələrindən keçilməsi üçündür. Bundan başqa bu körpüdən 60 tonluq çəkisi olan tırtıllı və təkərli texnikaların keçilməsi nəzərdə tutulub. Mexanikləşdirilmiş körpülərdən hərbi əməliyyatların gedişi zamanı, evakuasiya tədbirlərində, qəzalar və təbii fəlakətlər zamanı da istifadə edilir.



Mexanikləşdirilmiş körpü yüksək kecidliyə malik olan 8x8 təkər formulalı, körpü salan avtomobildən və körpü blokundan ibarətdir. Avtomobildə körpü bloklarının quraşdırılması və daşınması üçün avadanlıq və mexanizmlər quraşdırılıb. Avtomobil şəxsi heyəti tozdan, radioaktiv maddələrdən qorunmaq üçün mühafizə sistemi, radiostansiya-rabitə vasitələri və danışıq qurğuları ilə də təmin edilib. TMM-6 körpüsünün heyəti iki nəfərdən ibarətdir. Körpü keçidinin uzunluğu 17-102 metr təşkil edir. 60 tona qədər yük qaldırmağa qadirdir. Manеələrin dəf edilmə dərinliyi 5 metrdir. Qurğu vasitəsilə 102 metrlik körpü keçidinin salınması üçün 50 dəqiqə vaxt sərf edilir. Körpü üzrə texnikanın hərəkət sürəti saatda 20-30 kilometr, şose yolda hərəkət sürəti saatda 70 kilometr, orta sürəti saatda 35-40 kilometr, maksimal sürəti saatda 70 kilometrdir. Ehtiyat hərəkəti 1100 kilometr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Çempionlar Liqası: “Qarabağ” növbəti mərhələdə “Şerif” klubu ilə qarşılaşacaq



"Qarabağ"ın UEFA Çempionlar Liqasının ikinci təsnifat mərhələsindəki rəqibi bəlli olub.

Bu, Moldovanın "Şerif" klubu olacaq. Moldovalılar I təsnifat mərhələsində Lüksemburqun "Fola Eş" klubunu 2:0 hesabı ilə məğlub ediblər.

"Qarabağ"-"Şerif" qarşılaşması avqustun 26-da saat 20:00-da Tofiq Bəhramov adına Respublika Stadionunda start götürəcək. Görüşün baş hakimi qazaxıstanlı Furkat Atajanov olacaq. Ona yan xətt hakimləri Sergey Kalaçyov və Darhan Tulegenov kömək edəcəklər. Dördüncü hakim funksiyasını isə Qriqori Moskovçenko yerinə yetirəcək.

## Azərbaycan UEFA-nın reytinq cədvəlində 2 pillə irəliləyib



"Qarabağ"ın Çempionlar Liqasının birinci təsnifat mərhələsində Şimali Makedoniyanın "Sileks" klubunu 4:0 hesabı ilə məğlub etdiyi oyunda 0,375 xal qazanan Azərbaycan 14,750 xalla 26-cı yerdən 24-cü pilləyə yüksəlib. Buna həm də Qazaxıstanın Çempionlar Liqasındakı təmsilçisi "Astana"nın Belarusun "Dinamo" (Brest) klubuna 3:6 hesablı məğlubiyyəti səbəb olub.

## “Avro-2022”: Azərbaycan millisi “A” səbətində yer alıb



Sentyabrın 2-də UEFA-nın İsveçrənin Nyon şəhərindəki qərargahında futzal üzrə "Avro-2022"nin seçmə qrup mərhələsinin püşkü atılacaq.

Püşkdən əvvəl qitənin ali futbol qurumu milli komandaları reytinq cədvəlinə uyğun olaraq səbətlərə bölüb. Millimiz "A" səbətində yer alıb. Bu isə o deməkdir ki, həmin səbətdə yer alan komandalar qrup mərhələsində rəqib olmayacaqlar. Ümumiyyətlə, A, B, C qruplarının hər birində 8 komanda yer alıb. Norveç D səbətindədir. İlkin mərhələdən pley-off oyunlarına vəsiqə qazanan komandalar isə E qrupunda cəmləşiblər.

"Avro-2022"nin final mərhələsi isə yanvarın 9-dan fevralın 6-dək Niderlandda təşkil olunacaq.

## Boksçularımız açıq havada məşqləri davam etdirirlər

Boksçularımız açıq havada məşqlərə başlayıblar. Milli komanda üzvlərinin ümumi və fiziki hazırlığının artırılmasına xüsusi diqqət yetirilir. Yığma komanda Heydər Əliyev Mərkəzinin ərazisində və Dənizkənarı Milli Parkda məşq keçib.

Bu sözləri Azərbaycan Boks Federasiyasının mətbuat xidmətinin rəhbəri Tahir Hümmətov bildirib.

O deyib ki, Operativ Qərargahın qapalı məkanlarla bağlı qərarından sonra komandalar öz bazalarında təlim-məşq toplanışına başlayacaqlar. Təbii ki, uzun müddət təlim-məşqlərin keçirilməməsi, yarışların olmaması idmançıların hazırlığına təsir göstərib. Boks Olimpiya idman növüdür və mütəmadi olaraq məşqlərin keçirilməsi vacibdir. Məşqçilər çalışırlar ki, boksçuların hazırlığını lazımi səviyyəyə qaldırsınlar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kazımov Maşallah Dədəkişi oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 502
Nüsxə 3960